XALQ QƏZETİ 8 dekabr 2020-ci il, çərşənbə axşamı

№257

> *Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik.*
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**




Ölkə rəhbəri ötən 17 il ərzində bu vədinə sadiq qaldı, respublikamızda ordunun gücləndirilməsi ilə bağlı olduqca mühüm işlər gördü, Silahlı Qüvvələrimizdə keyfiyyət və kəmiyyət dəyişikliklərinin yaranmasına nail oldu.

Azərbaycan Ordusu bu güc-qüdrətini 2016-cı ilin aprelində sübut etdi. Həmin ayın 2-də Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Silahlı Qüvvələrimiz sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq,

# Azərbaycan Ordusu Vətən müharibəsində müasir döyüş tarixinin şanlı səhifəsini yazdı

**Dövlətimizin başçısının prezidentlik fəaliyyətinə başladığı ilk gündən diqqət yetirdiyi prioritet istiqamətlərdən biri də hərbi quruculuq məsələsi oldu. Xatırladaq ki, 2003-cü ildə andiçmə mərasimindəki nitqi zamanı Prezident İlham Əliyev demişdi: "Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir".**

Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2 min hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Ordumuz dördgünlük Aprel döyüşləri ilə xalqımıza qələbə sevinci yaşatdı. Ermənistan silahlı qüvvələri bu döyüşlərdə böyük itkilər verdi. Düşmənin 320-dən artıq hərbçisi məhv edildi, 500-dən artıq hərbi qulluqçusu yaralandı, 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, Madagiz yaşayış məntəqəsində yerləşən qərargahı və əsas hərbi hissələri dağıdıldı. Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılmasına imkan verən strateji mövqelər ələ keçirildi.

Azərbaycan Ordusu daha bir uğuru Aprel döyüşlərindən iki il sonra – 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazandı. Bu uğurlu əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Beləliklə, Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin dövlət sərhədi boyu əlverişli mövqelərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələndi, qarşıya qoyulan məqsədə nail olundu.

Ermənistan, necə deyərlər, bütün bu dərslərdən nəticə çıxarmadı. Bu il iyul ayının 12-16-da Azərbaycan–Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində daha bir məqsədyönlü təcavüzkar hərəkəti törətdi. Bu silahlı hücum təsadüfi bir hərbi insident olmayıb, Ermənistanın Azərbaycan Respublikasına qarşı qanunsuz güc tətbiqinin növbəti açıq təzahürü kimi diqqət çəkdi və ölkəmizin yeni ərazilərini zəbt etmək məqsədi daşıdı.

Bədxah düşmənin təcavüzü bu dəfə də Silahlı Qüvvələrimiz tərəfindən layiqincə cavablandırılmasına baxmayaraq, Ermənistan yenə növbəti işğalçı siyasətini həyata keçirmək iddiasından əl çəkmədi. Bunun üçün hazırlıqlara başlayıb, külli miqdarda silah və sursat tədarük edib, qüvvələrini təmas xətti boyunca cəmləşdirdi. Hətta Azərbaycana qarşı müharibə aparmaq üçün on minlərlə mülki şəxsdən ibarət hərbi dəstələr yaradıldığını elan etdi.

Yeri gəlmişkən, ötən müddətdə ordumuz tərəfindən aparılan əks-hücum əməliyyatlarının ən böyük nəticələrindən biri o oldu ki, Silahlı Qüvvələrimiz mənəvi-psixoloji, döyüş ruhu, sosial, ictimai, texniki-təchizat, silah-sursat, peşəkarlıq baxımdan Ermənistan ordusunu müqayisəolunmaz dərəcədə qabaqladığını təsdiqlədi və təbii ki, düşmən də bu üstünlüyü tam anladı. Erməni ictimaiyyəti bu prosesdə gerilədiyini, uduzduğunu öz üzərində açıq-aydın hiss etdi.

Ermənistan ordusunun sentyabrın 27-də isə təxribat törədərək, ölkəmizə hücuma keçməsi, müxtəlif növ silahlardan, o cümlədən, ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi və hərbi mövqelərimizi bir neçə istiqamətdən atəşə tutması Azərbaycan Silahlı Qüvvələrini əks-hücum əməliyyatlarına başlamağa məcbur etdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz 44 gün davam edən müharibədə möhtəşəm qələbə qazanaraq, dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Silahlı Qüvvələrimiz döyüş meydanında Ermənistanın "güclü, məğlubedilməz" ordu mifini birdəfəlik darmadağın etdi.

Beləliklə, Silahlı Qüvvələrimizin kompleks inkişafı və modernləşdirilməsi ilə bağlı son 17 ildə həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında təsdiqini tapdı. Ordumuz düşmənin uzun illər ərzində qurduğu, keçilməz hesab edilən müdafiə xətlərini qəhrəmanlıqla yardı, Ermənistanın hava hücumundan müdafiə sistemi və hərbi hava qüvvələrini sıradan çıxartdı. İşğalçı qüvvələrə ağır zərbələr endirdi, onların çoxlu sayda canlı qüvvəsi və hərbi texnikasını məhv etdi. Azərbaycan Prezidenti İlham Əliyev bununla bağlı dekabrın 1-də xalqa müraciətində dedi: "Biz müharibə dövründə Ermənistan ordusunu demək olar ki, məhv etdik. Mən müharibə dövründə müntəzəm olaraq düşmənin hərbi texnikasının məhv edilməsi ilə bağlı Azərbaycan xalqına məlumat verirdim. Artıq müharibə başa çatıb və bölgədə yeni dövr başlayır. Amma istərdim ki, Azərbaycan xalqına məlumat verim. Biz müharibə dövründə Ermənistan ordusunu necə məhv etmişik və nəyə görə Ermənistan baş naziri o alçaldıcı kapitulyasiya aktına imzasını qoydu".

Azərbaycanın bu möhtəşəm qələbəsi Prezident İlham Əliyevin uzun illər ərzində apardığı uğurlu xarici və daxili siyasətlə bərabər, ordu quruculuğu sahəsində fədakar fəaliyyətinin məntiqi nəticəsidir. Dövlətimizin başçısı bu barədə işğaldan azad edilmiş Ağdam şəhərində olarkən bildirdi ki, bu gün bir çox ölkələrdə bizim hərbi təcrübəmiz öyrənilir. Hazırda bu məsələ ilə məşğul olan bir çox ekspertlər qeyd edirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib.

Ağdama gələrkən ən azı üç müdafiə xətti gördüyünü söyləyən Prezident İlham Əliyev demişdir: "Amma mənə hərbçilər tərəfindən verilən məlumata görə, beş müdafiə xətti var. Füzulidə də, həmçinin. Biz bu müdafiə xətlərini əsgər və zabitlərimizin qəhrəmanlığı, peşəkarlığı sayəsində yarmışıq. Biz texniki cəhətdən ən müasir silahlarla təchiz edilmişik və İkinci Qarabağ müharibəsi bunu göstərdi, o videogörüntülər var. İndi onlar bir çox ölkələrdə öyrənilir və öyrəniləcək, hərbi kitablara salınacaq".

Prezident qeyd edib ki, təkcə silahlarla müharibəni qazanmaq mümkün deyil. "Bayrağı qaldıran, bayrağı düşmənin mövqeyinə sancan, azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. Bizim əsgər və zabitlərimiz aslan kimi vuruşdular. Şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların valideynlərinə Allah səbir versin! Yaralı hərbçilərimiz var, onlar da sağalırlar. Onların bir çoxu artıq sağalıb. Allah onlara şəfa versin! Biz qəhrəman əsgər və zabitlərimiz hesabına qələbə qazanmışıq. Təkcə Şuşanın işğaldan azad edilməsi əməliyyatı, əminəm ki, tarixdə əbədi qalacaq. Demək olar ki, yüngül silahlarla dərədən, meşələrdən, dağlardan keçərək əlbəyaxa döyüşdə düşməni məhv etdik, Qarabağın tacı olan Şuşanı azad etdik" – deyə, ölkə rəhbəri vurğulayıb.

Yeri gəlmişkən, Azərbaycan Ordusunun cənub istiqamətində irəliləyişləri inkişaf etmiş texnologiyalardan peşəkar istifadə, rəhbərliyin düzgün planlaşdırması nəticəsində həyata keçirilmişdisə, Şuşada bunun üzərinə heyətin şəxsi peşəkarlığı amili də əlavə olundu. Ümumiyyətlə, Azərbaycanın Vətən müharibəsi müasir döyüş tarixində tamamilə yeni bir səhifənin əsasını qoydu. Əməliyyatların zirvəsində gələn Şuşa döyüşü haqqında isə vaxt gələcək kinolar çəkiləcək, ən müxtəlif səviyyələrdə araşdırılacaq, haqqında onlarla əsərlər yazılacaq.

Ekspertlər bildirirlər ki, Şuşanın işğaldan azad olunması çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Bu şəhər o qədər müdafiə cəhətdən əhəmiyyətli, o qədər coğrafi-strateji baxımdan mühümdür ki, noyabrın 8-də məhz Şuşanın azad edilməsi Ermənistanın təslim olması ilə nəticələndi. Strateji yüksəklikdə yerləşən və ermənilər tərəfindən güclü müdafiə sisteminin yaradıldığı bu şəhəri almaq sanki mümkünsüz görünürdü. Lakin müzəffər Azərbaycan Ordusu, igid əsgər və zabitlərimiz qeyri-adi şücaət göstərərək, hərb tarixinə düşəcək bir səviyyədə döyüşmüş, yaxın məsafədən əlbəyaxa döyüşlərdə düşmənə qalib gəlmişlər.

Ehtiyatda olan polkovnik Şair Ramaldanovun sözlərinə görə, Prezident, Ali Baş Komandan İlham Əliyevin dönməz iradəsi, müasir silah və sursatla təmin edilən ordumuzun rəşadəti, nəhayət, xalqımızın dövlət başçısının və Silahlı Qüvvələrimizin ətrafında yumruq kimi birləşməsi Azərbaycan xalqına belə bir tarixi qələbə sevincini bəxş edən əsas amil oldu.

Ş.Ramaldanov Silahlı Qüvvələrimizin Vətən müharibəsini parlaq qələbə ilə başa çatdırmasını şərtləndirən digər bir neçə amili də diqqətə çatdıraraq bildirib ki, bunlara döyüş hazırlığının bütün tələblərini yerinə yetirmək üçün şərait yaradılması, irimiqyaslı təlimlərin keçirilməsi, ordunun Ali Baş Komandanın diqqəti və səyi nəticəsində müasir silahlarla silahlandırılması, artilleriya və aviasiyanın, eləcə də digər sahələrin inkişaf etdirilməsi daxil edilə bilər.

Azərbaycan Silahlı Qüvvələrinin texniki üstünlükləri işğal olunmuş ərazilərdə düşmənin mühüm obyektlərini darmadağın etməyə imkan verdi. Müharibənin gedişi ərzində bunun dəfələrlə şahidi olduq.

Orduda şəxsi heyətin ruh yüksəkliyini xüsusi qeyd etməliyik. Bu baxımdan Azərbaycan Silahlı Qüvvələri təkcə silah və müasir texnika gücünə yox, həm də yüksək döyüş ruhu, vətənpərvərlik nümunəsi ilə möhtəşəm qələbəni reallaşdırdı. Əsgər və zabitlərimizin fiziki və qəhrəmanlıq gücü hesabına Şuşanın işğaldan azad edilməsi bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, burada mühüm bir məqamı da xatırlatmaq istərdik. Ali Baş Komandanın qarşıya qoyduğu döyüş tapşırığını bacarıqla icra edən hərbçilərimiz Şuşa əməliyyatının böyük zəfərə çevrilməsində mühüm rol oynadılar.



Xüsusi təyinatlı, eləcə də onlara dəstək verən qüvvələr qarşıya qoyulan tapşırığı tam şəkildə yerinə yetirdilər. Şuşa işğal olunmuş Azərbaycan erazlərinin ən yüksək nöqtələrindən biri, bəlkə də birincisidir. Şəhərin azad edilməsi əməliyyatı da Vətən müharibəsinin zirvə nöqtəsidir.

Şuşa döyüşünə qədər ordumuzun qələbələrini inkişaf etmiş texnologiyalardan, döyüş vasitələrindən istifadə ilə bağlayırdılarsa, bu şəhər uğrunda gedən savaş Silahlı Qüvvələrimizin yüksək döyüş qabiliyyətinə malik olduğunu bir daha təsdiqlədi. Ondan sonra heç kim iddia etmir ki, Azərbaycan döyüşlərdə dronlar hesabına qələbə qazandı. Şuşa elə bir yerdir ki, oranı 5-10 günlük hazırlıqla azad etmək mümkün deyildi. Bunun üçün illərlə hazırlıq keçilməsi lazım idi. Ali Baş Komandanın nəzarəti altında Azərbaycan Ordusu bu hazırlığı keçmişdi, hər cür mürəkkəb relyefdə, hava şəraitində döyüşmək bacarıqlarına yiyələnmişdi. Şuşa əməliyyatının xarakteri elə idi ki, orada heç bir səhvə yol vermək olmazdı. Əməliyyat ən kiçik detallarına qədər, ən yüksək dəqiqliklə, dəqiq kəşfiyyat məlumatları əsasında və yüksək peşəkarlıqla hazırlanmalıydı, hazırlandı da. Əməliyyata elə heyət cəlb olundu ki, onun icrasında kiçik də olsa səhvə yol verilmədi.

Şuşa əməliyyatında bir məqsəd də şəhərin dağıntılara məruz qalmasına yol verməmək idi. Bu məqsədə də nail olundu, şəhər demək olar ki, dağıntısız azad edildi. Hərbçilərimiz sıldırım qayalarla yuxarı qalxaraq, düşməni heç vaxt gözləmədiyi yerdə yaxaladılar, yaxın məsafəli, əlbəyaxa döyüşdə onu məğlub edib, içərilərə doğru irəlilədilər. Bu isə düşməni panikaya düşməsinə, idarəçiliyi itirməsinə gətirib çıxardı. Beləliklə, işğalçı bütünlüklə Şuşadan qovuldu.

Onu da qeyd edək ki, son bir neçə ilin statistikasına əsasən, ölkəmiz müasir silahlanmaya görə, Avropada 2-ci, dünyada 3-cü yerdə qərar tutub. Şübhəsiz ki, bütün bu uğurlar dövlətimizin başçısının həyata keçirdiyi məqsədyönlü ordu quruculuğu siyasəti sayəsində mümkün olub.

Əgər belə olmasaydı, hazırda Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etmək üçün BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan 4 qətnaməsini təkbaşına reallaşdıra, hərb meydanında düşmənə qalib gələ, cəbhə xəttinin bütün istiqamətlərində əməliyyat şəraitinə tam nəzarət edə bilməzdi.

Azərbaycan Ordusunun yüksək peşəkarlığı, döyüş əzmi haqqında qardaş Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu dövlətimizin başçısını qələbə münasibətilə təbrik edərkən, deyib: "Sizin qələbəniz, bizim qələbəmizdir, – bu böyük zəfər münasibətilə təbrik edirik. Ali Baş Komandan olaraq, Sizin rəhbərliyinizlə qəhrəman Azərbaycan Ordusu nə edə bildiyini dosta, düşmənə nümayiş etdirdi, eyni zamanda, türkün gücünü də göstərdi. Bu prosesdə Sizin rəhbərliyinizlə qardaş Azərbaycan həm döyüş meydanında, həm də masada mövcudluğunu da göstərdi. Döyüş meydanında qələbələrinizə baxmayaraq, sülh yolu ilə, atəşkəs yolu ilə də bu münaqişənin həlli üçün böyük bir liderlik göstərdiniz.

Hərbi ekspert, "Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenkonun "Pravda.ru" nəşrinə ordumuzun güc-qüdrəti ilə bağlı açıqlaması da diqqət çəkir. İ.Korotçenko birinci Qarabağ müharibəsindən danışaraq xatırladıb ki, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanda ordu quruculuğu diqqət mərkəzində saxlanıldı, bununla bağlı mühüm tədbirlər həyata keçirildi. Prezident İlham Əliyev 17 illik hakimiyyəti dövründə isə iri infrastruktur neft-qaz layihələrini həyata keçirdi və bundan əldə edilən böyük həcmli valyuta gəlirləri hesabına bütün Azərbaycan, eləcə də ordu sürətlə inkişaf etdi və regionun ən güclü silahlı qüvvəsinə çevrildi.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*